

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 42-43 (7091-7092) * Bazar ertəsi, 3 iyun 2013-cü il * Qəzet ayda 4 dəfə çıxır * Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev Uruqvay Parlamenti Nümayəndələr Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, ticarət, turizm, kənd təsərrüfatı və digər sahələrdə inkişafı üçün yaxşı imkanların olduğu vurğulanmış və bu istiqamətdə müvafiq addımların atılmasının önəmi qeyd edilmişdir.

* * *

Prezident İlham Əliyev Qambiya Respublikasının xarici işlər nazirini qəbul etmişdir.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev NATO baş katibinin müavinini qəbul etmişdir.

Görüşdə enerji təhlükəsizliyi, nüvə silahının yayılmaması, terrorizmə qarşı mübarizə və digər, sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Prezident İlham Əliyev Koreya Respublikası Milli Assambleyasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

* * *

Dövlətimizin başçısı İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Van Kellini (ABŞ), Jak Forı (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması istiqamətində danışıqların hazırki vəziyyəti və perspektivləri müzakirə olunmuşdur.

* * *

Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 2 saylı Bakı «ASAN» xidmət mərkəzinin açılışı olmuşdur.

Prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Parlamentinin xarici əlaqələr komitəsinin sədri ilə görüşmüşdür.

* * *

Prezident İlham Əliyev Bakının Dağüstü parkında yenidənqurmadan sonra yaradılmış şəraitlə tanış olmuşdur.

* * *

Bakıda Ağ Şəhər bulvarının təməli qoyulmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak etmişdir.

**Miri RƏHİMOV.**

## Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olmuşdur. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirmişdir.

1918-ci il mayın 28-də Tiflisdə qəbul edilmiş «İstiqlal Bəyannaməsi»ndən—«Əqdnamə»dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirmiş, onu heç vaxt ölməyə qoymamışdır.

XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görmüş, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etmişdir. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoymuşdur.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoymuşdur. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi—28 Mayı Respublika Günü kimi qeyd edir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə mayın 27-də ziyarət etmişdir.



Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlət başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

**AzərTAc.**

## 28 May–Respublika Günü münasibətilə rəsmi qəbul

### *Prezident İlham Əliyev rəsmi qəbulda iştirak etmişdir*

Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı—Respublika Günü münasibətilə rəsmi qəbul keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak etmişdir.



Salona toplaşanlar dövlət başçısını hərarətlə qarşıladılar.

Azərbaycanın dövlət himni səsləndi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda nitq söyləmişdir. Ölkənin müstəqilliyi dövründə keçilən yolla bağlı Prezidentin geniş və əhatəli nitqi mərkəzi mətbuatın səhifələrində dərc olunmuşdur.

* * *

Sonda Azərbaycan incəsənət ustaları konsert proqramı ilə çıxış etmişlər.